

Biznes əməliyyatları hesabatı

2026-cı ilin birinci rübünün yekunları

Əsas göstəricilər (2026-cı ilin birinci rübünün sonu)

Hasilat


AÇG	
neft (min barel/gün)	325
neft (milyon ton)	4
Şahdəniz	
qaz (milyard kubmetr)	7
kondensat (milyon ton)	1

Əməliyyat məsrəfləri (milyon dollar)

AÇG	134
BTC	30
Şahdəniz	785
CQBK	23

Əsaslı məsrəflər (milyon dollar)

AÇG	363
BTC	28
Şahdəniz	336
CQBK	9



Dərinsulu Günəşli platforması

2026-cı ilin birinci rübünün mühüm hadisələri – AÇG əməliyyatları

- **~4,6 milyard barel** neft ilk hasilatdan bəri əldə olunub
- **62 milyard kubmetr** səmt qazı ilk hasilatdan bəri dövlətə təhvil verilib.
- **2 neft hasilatı quyusu, 3 su injektoru və 1 qaz injektoru quyusu** qazılıb və tamamlanıb.
- **4D yüksək dəqiqlikli dənizdibi qovşaqlarla seysmik tədqiqat proqramı** çərçivəsində 2025-ci ildə əldə olunmuş məlumatların emalı davam edib.
- **Dərinsulu Günəşlidə quyulara sualtı müdaxilə proqramı** çərçivəsində ilk quyuda sualtı müdaxilə işi uğurla tamamlanıb.
- İlkin **sərbəst təbii qaz (STQ)** hasilatı quyusu - qazma işləri 2025-ci ildə uğurla bitmiş, **ilk STQ hasilatı üçün əsas hədəf lay sayılan Qırmakıüstü Qumlu lay dəstində** qaz ehtiyatlarının mövcudluğu təsdiqlənmişdir. B**u laydan ilk hasilat 2026-cı ikinci yarısına planlaşdırılır.** Qırmakıaltı lay dəstində də yüksək təzyiqli qaz ehtiyatlarının mövcudluğu aşkar edilib. Bu laydan isə ilk STQ hasilatı 2026-cı ilin birinci yarısına planlaşdırılır. Bu, ilkin dövr üçün hasilat olmaqla yanaşı həm də quyuda və lay dəstində sınaq işlərinin aparılmasını nəzərdə tutur.



Çıraq platforması

2026-cı ilin birinci rübünün mühüm hadisələri –Şahdəniz əməliyyatları

- **~271 milyard kubmetr** qaz ilk hasilatdan bəri əldə olunub.
- **~53 milyon ton** kondensat ilk hasilatdan bəri əldə olunub.
- **Şahdəniz 2 layihəsi** çərçivəsində qərb cinahında quyularda sualtı işlər üzrə fəaliyyətlər davam edib.



Şahdəniz Alfa platforması

2026-cı ilin birinci rübünün mühüm hadisələri – Şahdəniz kompressiya layihəsi

- Rüb ərzində **Şahdəniz kompressiya (ŞDK) layihəsi** üzrə işlər təhlükəsiz şəkildə və qrafikə uyğun irəliləyib.
- ŞDK platformasının **üst modullarının və dayaq blokunun tikintisi işləri** müvafiq olaraq Bayıl istehsalat-quraşdırma sahəsində və Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda plana uyğun davam edib; **ilkin polad və struktur komponentlərinin tikintisi** üzrə əhəmiyyətli irəliləyiş əldə olunub.
- **Dəniz və sualtı mühəndislik fəaliyyətləri** qrafikə uyğun davam edib; müfəssəl dizayn işləri plan üzrə irəliləyib, əsas texniki baxışlar isə tamamlanıb.
- Bir sıra **mühüm avadanlıq dəstinin təchizat prosesi** tikinti və quraşdırma cədvəllərinə uyğun davam edib.



Şahdəniz kompressiya platformasının 3D modeli

2026-cı ilin birinci rübünün mühüm hadisələri – Səngəçal terminalı

- **~47 milyon barel** neft və kondensat və **~7 milyard kubmetr** Şahdəniz qazı 2026-cı ilin birinci rübündə Səngəçal terminalından ixrac edilib.
- **Gündəlik ixrac gücü:** 1,2 milyon barel neft və kondensat və 100 milyon kubmetr qaz.
- **Səngəçal terminalının elektrikləşdirilməsi (STEL) layihəsi** çərçivəsində terminal ərazisinin həm daxilində, həm də ondan kənarda aparılan tikinti işləri əhəmiyyətli dərəcədə irəliləyib. Terminal ərazisindən kənarda yerləşən yeni "AzərEnerji" yarımstansiyasının tikintisi əsasən tamamlanıb, hava xətlərinin quraşdırılması işləri isə tam başa çatıb. Terminal ərazisində də tikinti işləri plana uyğun davam edib. STEL sisteminin 2027-ci ildə işə salınması istiqamətində mühüm mərhələ sinxron kondensatorun təchizatıdır ki, bu avadanlığın ilk modulu artıq sahəyə çatdırılıb.



Səngəçal terminalı

2026-cı ilin birinci rübünün mühüm hadisələri – Şəfəq günəş layihəsi


- Rüb ərzində **Şəfəq günəş layihəsi** üzrə tikinti işləri Cəbrayıl rayonunda yerləşən layihə sahəsində plana uyğun irəliləyib.
- **Əsas avadanlıqların təchizatı və çatdırılması** uğurla tamamlanıb; payaların və izləyici sistemlərin quraşdırılması üzrə işlərdə ciddi irəliləyiş əldə olunub.
- Aprel ayının əvvəlində layihə sahəsində **ilk günəş paneli** quraşdırılıb.
- Tikinti işlərində **yerli resurslardan istifadə** artmaqda davam edib; hazırda layihəyə təxminən 350 nəfər yerli işçi cəlb olunub.
- **Ətraf mühitin qorunması** layihənin əsas diqqət mərkəzində qalmaqdadır - tikinti sahəsinin bitki örtüyündən təmizlənməsi işlərinin monitorinqi aparılır və vəhşi heyvanların sahədən təhlükəsiz şəkildə köçürülməsi həyata keçirilir.



Şəfəq günəş layihəsi

Digər layihələr üzrə mühüm hadisələr

- **Şəfəq-Asiman dəniz blokunda** Aşağı Suraxanı layına bir quyunun qazılması da daxil olmaqla gələcək fəaliyyətlərin planlaşdırılması üzrə işlər aparılır.
- **Qarabağ yatağında** dənizdibi sensor qovşaqlarla (OBN) seysmik tədqiqat qrafiki qabaqlayaraq martın ortalarında başa çatıb; əldə olunmuş məlumatların emalı hazırda davam edir. Bunun ardınca mart ayının ortalarında 45 günədək davam edəcək yüksək dəqiqlikli /ultra yüksək dəqiqlikli seysmik tədqiqat proqramına başlanıb.
- **ADUA layihəsi çərçivəsində** yerin təxminən 1500 metr dərinliyinədək qatları haqqında ətraflı məlumatlar əldə etməklə gələcək kəşfiyyat quyularının planlaşdırılmasına dəstək məqsədilə 2-ölçülü yüksək dəqiqlikli seysmik tədqiqat aparılıb.




ADUA blokunda 2D yüksək dəqiqlikli seysmik tədqiqat


Qarabağ yatağında OBN seysmik tədqiqat

2026-cı ilin birinci rübündə bp-nin işçiləri

- **2322 Azərbaycan vətəndaşı** 2026-cı ilin birinci rübünün sonunda bp-də işləyib.
- Azərbaycanda ixtisaslı işçilərin **90%-dən çoxu yerli kadrlardır**.





2026-cı ilin birinci rübündə yerli ehtiyatlardan istifadə

Yerli podratçılar/təchizatçılar (Azərbaycan, Gürcüstan, Türkiyə regionu)	Sayı	Xərclənib (milyon dollar)
Kiçik və orta müəssisələr	169	135,7
Dövlət şirkətləri	15	19,6
Yerli tərəfdaşı olan birgə müəssisələr	14	205
Xarici podratçıların ölkə daxilində məsrəfləri	55	134,5
Ölkə daxilində cəmi xərclər*	**253**	**494,6****

* Bu məbləğ bp-nin yerli şirkətlərlə birbaşa xərclərini və regionda fəaliyyət göstərən xarici şirkətlərlə müqavilələr üzrə yerli işçi qüvvəsinə / xidmətlərə / materiallara çəkilmiş bilavasitə (subpodratçı) xərcləri göstərir.

** Ümumi üçüncü tərəf xərclərinin 66%-i



2026-cı ilin birinci rübündə sosial təsəbbüslər

Azərbaycanda sosial təşəbbüslər
(ödənilmiş, milyon dollar)

bp və bp-nin əməliyyatçısı olduğu layihələrdəki tərəfdaşları	0,2
bp 100%	0,3
Cəmi	0,5



Ölkənin zəngin mədəni və tarixi irsinin təbliği



Yerli universitetlərin tədris imkanlarının genişləndirilməsi


Yerli icmalarda su şəraitinin yaxşılaşdırılması